Azərbaycan.- 2021.- 30 aprel. S. 4.

# Abşeronda rayon Ağsaqqallar Şurasının konfransı keçirilib

Abşeronda rayon Ağsaqqallar Şurasının konfransı keçirilib. İştirakçılar öncə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə tər çiçəklər düzərək xatirəsini ehtiramla yad ediblər.



Xırdalandakı Heydər Əliyev Mərkəzində keçirilən konfransda Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova, respublika Ağsaqqallar Şurası sədrinin müavini, Milli Məclisin deputatı Eldar İbrahimov və rayon ağsaqqalları iştirak ediblər.

İradə Gülməmmədova Azərbaycanın 44 günlük müharibədə düşmən üzərində qazandığı tarixi qələbədən danışaraq bildirib ki, Ali Baş Komandan İlham Əliyevin uğurlu və uzaqgörən siyasəti, iradəsi və qətiyyətli qərarları sayəsində xalqımız düşmən üzərində tam qələbə qazanaraq öz dədə-baba torpaqlarına qovuşdu və bununla da 30 illik vətən həsrətinə, düşmən işğalına son qoyuldu.

Eldar İbrahimov da əldə edilən qələbədən danışaraq azərbaycanlıların Qarabağa böyük qayıdışının əsasının qoyulduğunu qeyd edib. Vurğulayıb ki, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət sayəsində soydaşlarımız öz dədə-baba yurdlarına gözlənildiyindən daha tez qayıdacaqlar. Bu istiqamətdə sürətli işlər görülür, bütün lazımi tədbirlər reallaşdırılır. Azərbaycanın güclü iqtisadiyyatı mövcuddur və qarşıya qoyduğu bütün məqsədlərə çatmaq imkanına malikdir.

Sonra Abşeron Rayon Ağsaqqallar Şurasının yeni tərkibi səsverməyə çıxarılıb və heyət qəbul edilib, şuranın əsasnaməsi qəbul edilib, idarə heyətinin, təftiş komissiyasının üzvləri və sədr seçilib.

Abşeron Rayon Ağsaqqallar Şurasının sədri seçilən Nadir Ağayev göstərilən etimada görə təşəkkür edərək qarşıda duran vəzifələrdən danışıb. Qeyd edib ki, rayon ağsaqqalları Azərbaycanın əldə etdiyi qələbənin, nailiyyətlərin, torpaqlarımızın işğaldan azad olunmasının geniş təbliğ olunmasında iştirak etməli və bu istiqamətdə əllərindən gələni əsirgəməməlidirlər.

***Akif ƏLİYEV,***
***“Azərbaycan”***